# Poeziyanın «Qarabağ şikəstəsi»

## Xalq şairi Zəlimxan Yaqubun yeni işıq üzü görən kitabında Qarabağa həsr etdiyi şeirləri və bu mövzuda qələmə aldığı 11 poeması toplanıb

Yeni nəşrlər

Qarabağ tarixən qələm və söz əhlinin bir növ ilham mənbəyi kimi də sevilib. Qarabağın zaman-zaman yadellilərin "tamah dişi"nin altına düşməsi onun ağrılı-acılı taleyinin dastanlaşmasına gətirib çıxarıb.




Son yüz ildə Qarabağımız şair və yazıçılarımızın yaradıcılığında xüsusi önəm daşıyıb.

"Elm və təhsil" nəşriyyatı tərəfindən çağdaş Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi, "Şöhrət" və "Şərəf" ordenli, mərhum Xalq şairi Zəlimxan Yaqubun "Qarabağ şikəstəsi" adlı 272 səhifəlik, yeni kitabı 1000 tirajla işıq üzü görüb. Kitabda müəllifin Qarabağa həsr etdiyi şeirləri və bu mövzuda qələmə aldığı 11 poeması toplanıb.

Kitabı nəşrə hazırlayan və redaktoru Azərbaycan Aşıqlar Birliyinin katibi, "Ozan dünyası" jurnalının baş redaktoru, Əməkdar mədəniyyət işçisi Musa Nəbioğlu, üz qabığının rəssamı Azər Ziyadxandır.

Ustad sənətkar, sevimli Xalq şairi Z.Yaqubun anadan olmasının 70 illik yubileyi münasibətilə keçən ilin dekabr ayında "Ölüm də bir zarafatdır" və "Xalq Bank"ın "Xalq əmanəti" layihəsi çərçivəsində sayca iyirminci nəşri olan "Zəlimxan Yaqub. Seçilmiş əsərləri" də işıq üzü görmüşdü.

***"Azərbaycan"***

Azərbaycan.- 2021.-3 avqust.- S.8.